# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
## UNEC
# ELMİ ŞURA

**12 MAY 2023-cü il**

# QƏRAR EŞ № 187

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 52 üzvündən 44 üzvü

## E Ş İ D İ L D İ:

***Elm üzrə prorektor prof. Sakit Yaqubov***

*Əsasnamə haqqında*

## Q Ə R A R A A L I N D I:

***"UNEC Xanım Tədqiqatçılar Şurası" Tədqiqat Mərkəzinin Əsasnaməsi təsdiq edilsin.***

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Dövlət İqtisad**

**Universitetinin rektoru, professor**

**__________________Ə.C. Muradov**

# Azərbaycan Dövlət İqtisad Universiteti

# UNEC Xanım Tədqiqatçılar Şurasının

# Ə S A S N A M Ə S İ

***UNEC Elmi Şurasının _12 may_ 2023-cü il***

***tarixli _187_ saylı qərarı ilə təsdiq edilmişdir.***

## 1. Ümumi müddəalar

**1.1.** Azərbaycan Dövlət İqtisad Universitetinin Xanım Tədqiqatçılar Şurası (Women Researchers Council -WRC), (bundan sonra – Mərkəz) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində ictimai elmlər, o cümlədən siyasi elmlər, beynəlxalq hüquq, siyasi iqtisadiyyat və digər əlaqəli sahələrdə yerli və beynəlxalq elmi-tədqiqat layihələrini həyata keçirəcək.

**1.2.** Mərkəzin qısa adı – XTŞ adlanır. XTŞ-nin yerləşdiyi ünvan: Bakı şəhəri, İstiqlaliyyət-6; elektron poçt ünvanı: wrc@unec.edu.az

**1.3.** Mərkəz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Təhsil Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə AR Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərini, UNEC-in Nizamnaməsini, eyni zamanda XTŞ-nın Əsasnaməsini rəhbər tutur.

**1.4.** Mərkəz ayrıca hüquqi şəxs deyil.

## 2. Mərkəzin fəaliyyət istiqamətləri

**2.1.** Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində fəaliyyət göstərən UNEC Xanım Tədqiqatçılar Şurası ictimai elmlər, o cümlədən siyasi elmlər, beynəlxalq hüquq, siyasi iqtisadiyyat və digər əlaqəli sahələrdə elmi və təhsil layihələri üzrə kampus daxilində və xaricində qadın tədqiqatçıların və alimlərin beynəlxalq tədqiqat şəbəkəsidir.

**2.2.** Xanım Tədqiqatçılar Şurasının əsas məqsədi sosial elmlərin ən aktual mövzuları üzrə yerli və beynəlxalq qadın tədqiqatçıları və alimləri bir araya gətirərək elmə akademik töhfələr verməkdir.

**2.3.** XTŞ sosial elmlər sahəsində konfranslar/simpoziumlar, seminarlar və tədqiqat seminarlarına ev sahibliyi etmək üçün qadın tədqiqatçılar, siyasət ekspertləri və peşəkarlarla intellektual əlaqəni təşviq edir.

**2.4.** UNEC Xanım Tədqiqatçılar Şurası kampusda və ondan kənarda qadın alimlərə və tədqiqatçılara müxtəlif beynəlxalq proqramlar, seminarlar, konfranslar və tədqiqat təqaüdləri üçün müraciət etməkdə kömək etmək üçün çalışır.

**2.5.** XTŞ qadın tədqiqatçıların və alimlərin tədqiqat maraq sahələrinə aid materialları UNEC icmasına təqdim edir.

**2.6.** Xanım Tədqiqatçılar Şurası qadınların yaratdığı akademik təşəbbüslərə və layihələrə böyük diqqət yetirməklə qadın mərkəzli tədqiqat fəaliyyətlərini dəstəkləyir.

**2.7.** XTŞ "Women Empowerment in Science" sloqanı ilə fəaliyyət göstərir və qadınların elmi fəaliyyətinə və elmdə qadınların səlahiyyətlərinin artırılmasına dəstək göstərməyə hazırdır;

**2.8.** Sosial elmlər və humanitar elmlər sahəsində biliklərin inkişafı və genişləndirilməsi məqsədilə digər ali təhsil müəssisələri və beyin mərkəzləri ilə əməkdaşlıq;

**2.9.** Azərbaycan Respublikası və xarici ölkələrdəki digər ali təhsil müəssisələrinə metodiki dəstəyin göstərilməsi;

**2.10.** XTŞ tərəfindən akademik yazı bacarıqlarının inkişaf etdirilməsi, elmiometriya və qadın tədqiqatçılarının elmi fəaliyyətinin səmərəli təşkili istiqamətində təlimlərin təşkili;

**2.11.** Mərkəz öz hədəflərinə nail olmaq üçün Azərbaycan Respublikasında qüvvədə olan qanunvericiliyi rəhbər tutaraq digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Mərkəzin vəzifələri

**3.1.** Qadın mərkəzli tədqiqatlar, xüsusilə, gender, sosial elmlər və humanitar elmlər sahəsində dinləyicilərin təcrübəkeçmə və ixtisasartırma tələblərinin ödənilməsi yenidən hazırlanması məqsədi ilə təlim-tədris proqramlar hazırlamaq, onları yüksək səviyyədə, mövcud norma və qaydalara tam əməl edilməsi şərti ilə tədris etmək;

**3.2.** Gender bərabərliyi, qadınların əmək bazarına inteqrasiyası, beynəlxalq münasibətlər, siyasi iqtisadiyyat sahələrində elmi-tədqiqatlar aparmaq, bu sahədə biliklərinin artırılması ilə bağlı treninq, seminar və kursların təşkilini və həyata keçirilməsini təmin etmək;

**3.3.** Fəaliyyət istiqamətləri üzrə tədqiqat və əlavə tədrisə olan tələbatı öyrənmək, buna uyğun olaraq təkliflər hazırlamaq və müvafiq tədbirlər həyata keçirmək;

**3.4.** UNEC rektorunun göstərişi ilə dövlət orqan və özəl şirkətlər tərəfindən hazırlanmış layihələrə rəy və təkliflər vermək;

**3.5.** Beynəlxalq və yerli layihələrdə iştirak etmək;

**3.6.** XTŞ-nı gender əsaslı proqramlarda təmsil etmək və daha çox xanım tədqiqatçıların cəlbinə nail olmaq, international research hub-a çevrilmək.

## 4. Mərkəzin hüquqları

**4.1.** Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində hüquqi və fiziki şəxslərə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

**4.2.** Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

**4.3.** Fəaliyyət istiqamətləri üzrə iclaslar, tədris və metodiki konfranslar, seminarlar təşkil etmək, tədris-metodiki və məsləhət yönümlü tədris və elmi vəsaitləri hazırlamaq və nəşr etdirmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

**4.4.** Qanunvericiliklə müəyyən olunmuş qaydada və fəaliyyət istiqamətləri üzrə respublikada və xarici dövlətlərdə fəaliyyət göstərən elmi-tədqiqat və tədris müəssisələri, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə və kadr hazırlığı mübadiləsi aparmaq, müvafiq layihələrin həyata keçirilməsində iştirak etmək;

**4.5.** Fəaliyyətinə aid məsələlər üzrə müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə iştirak etmək;

**4.6.** Fəaliyyət istiqamətlərinə uyğun digər mərkəzlərin qabaqcıl təcrübəsini öyrənmək, onun tətbiqi sahəsində fəaliyyəti həyata keçirmək və mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində UNEC rektoruna təkliflər vermək;

**4.7.** Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

**5.1.** Mərkəzin fəaliyyətinin təşkili UNEC rektorunun əmri ilə təyin olunmuş rəhbər tərəfindən həyata keçirilir;

**5.2.** Mərkəzin fəaliyyətinin təşkili məsələlərində Mərkəz rəhbəri Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir;

**5.3.** UNEC rektoru Mərkəzin ştat cədvəlinə uyğun olaraq işçiləri qəbul və vəzifədən azad edir, onlara qarşı AR mövcud əmək qanunvericiliyinə uyğun olaraq həvəsləndirici tədbirlər görür.

**5.4. Mərkəz rəhbərinin hüquqları:**

- Bu Əsasnamədə ona verilmiş səlahiyyətlər daxilindəUNEC adından nəzərdə tutulmuş qaydalara əsasən hərəkət etmə;
- UNEC-in qərarlarına və ya UNEC tərəfindən təsdiq edilmiş planlara uyğun olaraq Mərkəzin fəaliyyətinə operativ rəhbərlik etmək;
- - Mərkəzin səlahiyyətləri daxilində ona verilmış əmlakdan istifadə etmək hüququna malikdir;
- - UNEC-in Nizamnaməsinə və yerli aktlara aid digər səlahiyyətləri həyata keçirir.

**5.5. Mərkəz rəhbərinin vəzifələri:**

- Mərkəzin rəhbəri Mərkəzin fəaliyyətinə məsuliyyət daşıyır;
- Bu əsasnamənin 2.1-ci bəndində göstərilən Mərkəzin fəaliyyət məqsədlərinin yerinə yetirilməsini təmin edir;
- Mərkəzin fəaliyyətinə dair qərarların icrasını təmin edir;
- Mərkəzlə beynəlxalq və xarici təşkilatlar arasında beynəlxalq münasibətlərin koordinasiyasını həyata keçirir.

## 6. Mərkəzin yaradılması və ləğv edilməsi

**6.1.** Mərkəz UNEC-in Elmi Şurasının qərarı və rektorun əmri əsasında yaradılır və ləğv edilir.